*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 329-334*
https://doi.org/10.62837/2024.5.329

**NURİYEVA SOLMAZ İRŞAD QIZI**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Üzeyir Hacıbəyli küç.68**
**e-mail: slmz.nuri@mail.ru**

# İCMAL MÖVZULARININ TƏDRISI METODIKASI

**Xülasə**

Müasir texniki tərəqqi dövründə tədrisi yalnız ənənəvi üsulla, mexaniki əzbərləməklə aparmaq məqbul sayılmır. Kurikulumun tətbiq olunduğu ilk illərdə ənənəvi metodları tamamiylə rədd etmək kimi fikir əks olunmuşdu. Əzur vəznli əsərlərin tədrisi zamanı ortaya çıxan problemlər bu fikrin yanlış olduğu qənaətini ortaya çıxardı. Ədəbiyyat tədrisi zamanı bir çox interaktiv təlim metodlarından istifadə oluna bilər. İcmalların tədrisində daha spesifik, istifadəsi daha səciyyəvi olan, tətbiqi zamanı zaman israfının qarşısını alan metodlara bunları nümunə göstərmək olar: İnteraktiv mühazirə, insert, diskussiya (müzakirə), problemli sual, beyin həmləsi, BİBÖ, venn diaqramı, debat, konseptual cədvəl, klaster, anlayışların çıxarılması və s. İcmalların tədrisi zamanı bütün metodlardan bəlkə də ən effektivi müəllimin interaktiv mühazirəsidir. Bu mühazirə növünün ənənəvi formadan fərqi şagirdlərin passiv dinləyici olmamasıdır. İcmalların tədrisi zamanı bütün metodlardan bəlkə də ən effektivi müəllimin interaktiv mühazirəsidir. Bu mühazirə növünün ənənəvi formadan fərqi şagirdlərin passiv dinləyici olmamasıdır.

**Açar sözlər:** icmal mövzuları, metodlar, inteqrasiya

Dərsi tədris edən zaman yeni təlim texnologiyalarının imkanlarından lazimi səviyyədə və səmərəli formada istifadə etməliyik. “Müasir ədəbiyyat dərsi yeni təlim texnologiyalarının məqsədyönlü şəkildə tətbiq olunduğu dərsdir”. (1, s 134) Bu sitatdan yola çıxaraq deyə bilərik ki, müasir təlim texnologiyalarını kor-koranə istafadə etmək müasir tələblərə uyğun dərs keçmək demək deyil.

Ənənəvi təlimdəki bəzi təlim metodları bu gün ədəbiyyatın tədrisində əvəzedilməz rol oynayır. Ənənəvi təlimdə istifadə olunan, müasir dövrümüzdə də özünəməxsus yerə sahib olan təlim texnologiyalarının təlimin yeni tələblərinə uyğunlaşdırılaraq tətbiqi vacib məsələlərdəndir. Kurikulumun tətbiq olunduğu ilk illərdə ənənəvi metodları tamamiylə rədd etmək kimi fikir əks olunmuşdu. Əzur vəznli əsərlərin tədrisi zamanı ortaya çıxan problemlər bu fikrin yanlış olduğu qənaətini ortaya çıxardı. Buna görə də sonralar ənənəvi təlim metodlarının bəzilərinin yenilənərək tətbiq edilməsi zərurət kimi ortaya çıxdı.

Bildiyimiz kimi, icmallar yalnız X və XI siniflərin təlim materiallarına daxil edilmişdir. Bu əlbəttə ki, səbəbsiz deyildir. Bəhs etdiyimiz siniflərdə oxuyan şagirdlər lazımi mənbələrdən istifadə edərək vacib olan məlumatları toplaya bilirlər. Artıq bu dövrlərdə onlar tarix dərslərində tarixi faktlar, müəyyən dövrdə baş verən hadisələr haqqında məlumatlar əldə ediblər. Bu yaşdakı şagirdlərin yaş və bilik səviyyəsi bir çox təlim metodunun tətbiqinin lazımi səviyyədə həyata keçirilməsini

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 329-334*
təmin edir. Yuxarı sinif şagirdlərində mübahisə etmək, tənqidi fikir söyləmək meyli güclü olur. Fikir ayrılığına gətirib çıxaran məsələlərin şagirdlərin mühakiməsinə verməsi müəllim tərəfindən təmin olunmalıdır ki, hər bir şagird çəkinmədən öz fikrini ifadə edə bilsin. Bu, şagirdlərdə müstəqil düşüncə, mühakimə, tənqidi fikir söyləmək və s. bu kimi xüsusiyyətlərin inkişafına şərait yaradır. Şagirdlərdən hər biri öz fikrinin doğruluğunu sübut etmək üçün dərslikdəki mətni , təhlil materialları, eləcə də tapşırıqları və digər mənbələri dönə-dönə diqqətlə nəzərdən keçirərək tutarlı dəlillər tapmağa çalışırlar. Belə vəziyyətdə müəllim şagirdlərin fəaliyyətinə düzgün istiqamət verməli, bunun səmərəliliyini təmin etməlidir.

Ədəbiyyat tədrisi zamanı bir çox interaktiv təlim metodlarından istifadə oluna bilər. İcmalların tədrisində daha spesifik, istifadəsi daha səciyyəvi olan, tətbiqi zamanı zaman israfının qarşısını alan metodlara bunlarınümunə göstərmək olar: İnteraktiv mühazirə, insert, diskussiya (müzakirə), problemli sual, beyin həmləsi, BİBÖ, venn diaqramı, debat, konseptual cədvəl, klaster, anlayışların çıxarılması və s.

İcmalların tədrisi zamanı bütün metodlardan bəlkə də ən effektivi müəllimin interaktiv mühazirəsidir. Bu mühazirə növünün ənənəvi formadan fərqi şagirdlərin passiv dinləyici olmamasıdır. Mühazirə daxilində dialoq və söhbətlərə yer verilir, yeri gəldikdə şagirdlərə problemli suallarla müraciət olur. Onların mühazirədən sonra diskussiya aparmaları təmin edilir. Əldə etdikləri məlumatlar əsasında dərsdə fikir mübadiləsi aparırlar və bu məlumatlar ev tapşırıqları edilən zaman müstəqil formada tədqiqat aparmaları üçün özül rolu oynayır. Məsələn, "İntibah dövrü Azərbaycan ədəbiyyatı" mövzusunun tədrisi zamanı bu metodun tətbiqinə baxaq: Müəllim bu dövrün xaraketeristik xüsiyyətlərini əhatə edən qısa bir mühazirə materialı hazırlayır. Müəllim bu materialı hazırlayarkən müəyyən qədər başqa mənbələrə müraciət edə bilsə də, daha çox dərslikdəki mətnə əsaslanır. Mühazirədə əks olunmalı olan müddəalar aşağıdakılardır:

— "İntibah" anlayışının açıqlanması,
—Həmin dövrdə ölkənin ictimai-mədəni həyatında müşahidə edilən güclü yeniləşmə, inkişaf meyilləri,
—Ədəbiyyatda humanist ideyaların üstünlük təşkil etməsi və s.

Ev tapşırıqlarının verilməsi mərhələsində dərslikdəki mətndən Mahmud Kaşğarinin "Divani-lüğat-it türk", Əhməd Yəsəvinin "Divani-hikmət", Yusif Balasaqunlunun "Qutadqu-bilik" əsərləri haqqında məlumat əldə etdirlər. Daha sonra isə əlavə mənbələrdən bu barədə toplanılan məlumatlar əsasında "Evdə iş" başlıqlı çalışmanı həll edirlər.

İnsert səmərəli mütaliə və təfəkkürün inkişafı üçün interaktiv qeydetmə sistemidir. Bu metodun tətbiqini "Erkən yeni dövr Azərbaycan ədəbiyyatı" mövzusunun tədrisində müşahidə edə bilərik:

Yeni dərsi oxumamışdan əvvəl müəllim şagirdləri cütlərə ayırır. Beş dəqiqə ərzində onlardan xahiş edir ki,daha əvvəl keçdikləri mövzu olan "Orta əsrlər Azərbaycan ədəbiyyatı " haqqında nə bilirlərsə qısa şəkildə yazsınlar. Müəllim əvvəlcədən şagirdlərə bildirməlidir ki, yazdıqlarında çatışmayan cəhətlər ola bilər, xatırladıqları məlumatlar dəqiq olmaya da bilər, dərsin gedişi zamanı üzərində

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 329-334*
düzəlişlər aparılacaqdır. Şagirdlərə dövr haqqında bildiklərini siyahı şəklindəyazmaq tapşırılır. Cütlərdə iş qurtardıqdan sonra bütün sinif müzakirəyə başlayır. Xatırlanmış məlumatlar lövhədə qeyd edilir və ümumiləşdirilir. Bundan sonra mətn paylanılır və oxutdurulur, müəllim şagirdlərə müraciət edərək oxuduqca səhifələrin kənarında işarələr qoymağı tapşırır.

Şagirdlərin mətn üzərində işi tamamlandıqdan sonra ümumi nəticələr çıxarılır. Bunun nəticəsində dərsin hansı istiqamətdə qurulacağı dəqiqləşir.

Ədəbiyyat təlimində daha çox tətbiq olunan, şagirdlərin marağını cəlb edən, əqli fəaliyyətin formalaşmasına müsbət təsir göstərən "BİBÖ" üsulundan geniş istifadə olunur. İcmalların tədrisində də ən çox istifadə olunan metodlardan biri BİBÖ metodudur. Dərslik kompleksində bu metodun tədrisinə xüsusi önəm verilir. Yeni mövzunun izahı, keçmiş bilik və təcrübə iləyeni bilik və anlayışlar arasında əlaqənin yaradılmasında, ümumiləşdirici dərslərdə bu üsulun tətbiqi müsbət nəticə verə bilər.

Müəllimlərə metodik kömək göstərmək üçün X sinifdə tədrisi nəzərdə tutulmuş (proqramda 1 saat vaxt ayrılmışdır) "Azərbaycan şifahi xalq ədəbiyyatı" icmal mövzusuna əsaslanaq. Proqramın və dərsliyin tələbinə uyğun olaraq dərs müddətində şagirdlərin folklorun növ və janrları, tarixi, inkişafı, aşıq yaradıcılığı və dastanlar haqqında öyrəndikləri sistemə salınmalıdır. Epik folklor nümunələri ilə bağlı hansı bilik və anlayışları şagirdlərin bilib-bilmədiklərini və öyrənmək istədiklərini müəyyənləşdirmək üçün "BİBÖ" üsulundan istifadə edək. Bütün bunları müəyyənləşdirmək üçün şagirdlərə iki mərhələli suallar verilir. I mərhələ üçün suallar:

1. Epik növün hansı janrlarında mübaliğələrə və sehirli qüvvələrə geniş yer verilir.
2. Nağıllar ən çox sevilən epik nümunədir. Bunun səbəbini nədə görürsünüz?
3. Şifahi xalq ədəbiyyatının da müəllifi bəlli olan nümunələri ola bilərmi?

II mərhələ üçün suallar:

1. Nağıllar üçün səciyyəvi olan xüsusiyyətləri ümumiləşdirin.
2. Epik növün hansı janrlarında mübaliğələrə və sehirli qüvvələrə geniş yer verilir.
3. Sizcə şifahi ədəbiyyatın hansı janrında həm əhvalat həm də şeir vardır?

Bu qurulan suallar orta səviyyəli sinif üçün nəzərdə tutulmuşdur. Sinifin səviyyəsi yüksək və ya zəif olsa saullarda dəyişikliklər aparıla bilər. Mərhələlərin hamısını əhatə edə bilən suallar ya əvvəlcədən vərəqlərəyazılır və təlim zamanı hər qruplara paylanır ya da, lövhədə suallar yazılır şagirdlər yerlərində sualarla bağlı qeydlərini götürürlər. Şagirdlərin suallara verdiyi cavablar qeyd olunur, cavablandıra bilmədikləri suallar işarələnir. Sonda yenidən BİBÖ cədvəlinin qarşısına gələrək bilinən məlumatlar "Bilirəm" sütununda qeyd edilir. Cavablarını dərslikdəki mətni oxuduqdan sonra öyrənə biləcəkləri suallar isə "İstəyirəm biləm" hissəsində qeyd olunur. Bütün müzakirələrdən sonra epik növün hansı istiqamətdə öyrədiləcəyi, daha çox diqqət yetirilməli olan cəhətlər artıq hamı üçün aydın olur. Sonda mətn oxunduqdan sonra əldə olunan materiallar "Öyrəndim" hissəsində qeyd edilir.

Motivasiya mərhələsində tətbiq olunan metodlardan beyin həmləsi, problemli sual nümunə göstərmək olar.

Əqli hücum tətbiq edilərkən müəllim həll olunmalı problemi elan edir. Sual lövhəyə yazılır və ya şifahi şəkildə verilir. Əqli hücum zamanı yeni mövzu ilə əlaqədar hər hansı bir fikrin, ifadənin tamamlanması üçün mümkün variantları müəyyənləşdirmək tapşırığı da vermək mümkündür. Məsələn, "Azərbaycan ədəbiyyatında maarifçi-realizm dövrü" mövzusunun tədrisində mətnin daxilində maarifçilər haqqında ilkin məlumatlar məlumatlar verilir. Bu metodu tətbiq etmək üçün əvvəlcə "maarif" sözünün izahı lövhədə yazılır. Daha sonra şagirdlərdən bu məlumata əsasən maarifçiliyin nə olduğu və onun nümayəndələrinin hansı məqsədə xidmət etdikləri ilə bağlı fikirlər səsləndirmələri istənilir.

"Beyin həmləsi" metodu əsasında təşkil olunmuş dərslərdə istifadə edilən texnikalardan-iş formalarından biri də "Auksion"dur. Bu, müəyyən bir nəzəri anlayışın, hadisələrin, obrazların xüsusiyyətlərini açmağa, daha çox fərqli cəhətlərini ortaya çıxarmağa imkan yaradır. "Auksion"dan istifadə iş forması dinləmə mədəniyyəti tələb edir, əməkdaşlıq şəraitində tətbiq olunur, iş prosesi 5-7 dəqiqə müddətində yekunlaşır. Böyük qruplarda iş aparan zaman, ümumiləşdirici dərs tiplərində tətbiq etmək məsləhət bilinir. Xüsusiyyətlər ardıcıl sadalanır, sonuncu fikri söyləyən qalib sayılır. İcmal mövzularında auksion metodundan həm dərsin sonunda, həm də motivasiya mərhələsində istifadə oluna bilər: Erkən yeni dövr Azərbaycan ədəbiyyatı tədris olunarkən motivasiya mərhələsində şagirdlər həm tarixi məlumatları, həm də aşağı sinifdə mənimsədikləri məlumatları bu metod sayəsində ardıcıl sadalayırlar. Müəllim sonuncu cavabı bir-iki dəfə təkrarlayır. Yeni əlavə cavablar olmazsa, işi dayandırır, sonuncu cavab verən qalib sayılır.

Qeyd etdiyimiz kimi icmal materiallarının, bədii əsərlərin məzmun və təhlili üzərində müstəqil işin təşkili, nəzəri anlayışların öyrədilməsində Venn dioqramı maraqlı iş formalarından biridir. Venn dioqramında iki dairə çəkilir, dairələrin bir-birinə birləşən hissəsində boş sahə saxlanılır. Bir-birinə müəyyən xüsusiyyətlərinə görə oxşayan və fərqli cəhətləri olan iki-üç hadisə, yaxud anlayış müqayisə obyekti kimi seçilir. Əgər iki anlayış müqayisə obyekti kimi götürülürsə, birinci anlayışın xüsusiyyətləri birinci dairədə, ikinci anlayışın əlamətləri isə ikinci dairədə yazılır. Bu dairələrin birləşən hissəsində isə oxşar xüsusiyyətləri müəyyənləşdirmək nəzərdə tutulur. Bu üsuldan aşağıdakı hallarda istifadə etmək mümkündür.

1. Ayrı-ayrı yazıçıların hansı ədəbi məktəb və cərəyanlara mənsub olması, onların yaradıcılıq xüsusiyyətlərini birləşdirən ümumi və fərqli tərəflərinin müəyyənləşdirilməsi;
2. Ayrı-ayrı əsərlər arasında oxşar və fərqli məqamların aşkar edilməsi;
3. Obrazların müqayisəli öyrədilməsi, xarakter, davranış, hərəkətlərində oxşar və fərqli xüsusiyyətlərin açılması;
4. Nəzəri anlayışların bir-biri ilə oxşar və fərqli tərəflərinin qavranılması, dərk etdirilməsi;
5. Yazıçı mövqeyi ilə real həyatdakı hadisələrin oxşar və fərqli tərəflərinin üzə çıxarılması.

İcmal mövzularında venn dioqramından istifadə etmək mövzunun dərindən mənimsədilməsi və fənndaxili inteqrasiyanın reallaşdırılması üçün ən mükəmməl

metoddur. Hər bir icmal mövzusu keçilərkən əvvəlki mövzu ilə əlaqəni qırmamaq məqsədilə venn dioqramından istifadə məqsədəuyğundur. Başqa bir cəhətdən baxaq. "Erkən yeni dövr" mövzusunda nəzəriyyə məlumatlarının verilir. Şifahi ədəbiyyatın lirik növünün müxtəlif janrlarının, yəni qoşma gəraylı, təcnisin adı çəkilir. Bu janrların bir-biri ilə müqayisə edilərək öyrədilməsi hər üç janrın mükəmməl şəkildə mənimsədilməsini təmin edir. Venn dioqramından istifadə bu sahəyə aid bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsinin yaddaşa əyani verilməsi və qavranılması kimi qiymətləndirilir.

Müasir dövrdə təlim prosesində qarşıda duran ən mühüm vəzifə yüksək bilik və bacarığa malik, müstəqil düşüncəyə və ardıcıl təfəkkürə yiyələnmiş, milli və bəşəri dəyərlərə hörmət edən şəxsiyyət formalaşdırmaqdır ki, bu vəzifənin əsas ağırlığı Ədəbiyyat təliminin üzərinə düşür.

## İstifadə edilmiş ədəbiyyat\References

1. Həsənli.B Ədəbiyyatın tədrisi metodikası – Bakı, -2016.
2. Hüseynoğlu.S Ədəbiyyat dərslərində yeni texnologiyalar; Fəal\interaktiv təlim – Bakı, -2009.
3. Xəlilov.P. Ədəbiyyat dərslərində milli məfkurə təbliğinin imkan və üsulları -Bakı: Maarif, -1977.
4. Qarabağlı.Ə Azərbaycan ədəbiyyatının tədrisi metodikası - Bakı, -1968.
5. Yusifov.F "Ədəbiyyatın tədrisi metodikası" – Bakı, -2023.

## Methodology of teaching review topics

**Abstract**

In the era of modern technical progress, it is not acceptable to conduct education only by traditional method, by mechanical memorizing. The early years of the introduction of the curriculum reflected the idea of completely abandoning traditional methods. The problems that arose when teaching the works of Aruz prosody allowed us to conclude that this idea was erroneous. There are many interactive teaching methods that can be used when teaching literature. Below are examples of methods that are more specific, more specific to use, and avoid wasting time during application: Interactive lecture, insert, discussion, problem question, brainstorming, BIBO (I know, I want to know, I learned), venn diagram, debate, conceptual table, cluster, concept extraction, etc. Perhaps the most effective of all methods when teaching reviews is an interactive teacher lecture. The difference of this type of lecture from the traditional form is that the students are not passive listeners.

**Keywords:** review topics, methods, integration

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 329-334*

## Методика преподавания обзорных тем

**Абстракт**

В наш век современного технического прогресса недопустимо преподавание только традиционным методом - механическим заучиванием. В первые годы внедрения учебной программы отражалась идея полного отказа от традиционных методов. Проблемы, возникшие при преподавании весомых произведений, написанных на основе аруза, привели к выводу, что эта идея ошибочна. В процессе преподавания литературы можно использовать множество интерактивных методов обучения. Ниже приведены примеры методов, которые более конкретны в своем использовании и позволяют не тратить время на их применение: Интерактивная лекция, бокс, дискуссия (дебаты), проблемный вопрос, мозговой штурм, ЗХУ (знаю, хочу знать, умею), диаграмма Венна, дебаты, таблица понятий, кластер, поиск понятий и др. Пожалуй, самым эффективным из всех методов обучения является интерактивная лекция преподавателя. Отличие этого вида лекции от традиционной формы заключается в том, что студенты не являются пассивными слушателями. Пожалуй, самым эффективным из всех методов обучения является интерактивная лекция преподавателя. Отличие этого вида лекции от традиционной формы в том, что студенты не являются пассивными слушателями.

**Ключевые слова:** обзорные темы, методы, интеграция.

**Rəyçi: ped.ü.f.d., dosent Soltan Hüseynoğlu**